***Təhsildə özəlləşmə. Vəziyyət necədir?***

***Akif MƏMMƏDOV***

Başqa sahələrdə olduğu kimi, təhsil sahəsində də bir neçə ildir ki, özəlləşmə gedir. Yağışdan sonra çoxalan göbələk kimi təhsil müəssisələri indi nəinki rayon mərkəzlərində, hətta az qala kəndlərdə də özünə “iqamətgah” tapıb. Bu çoxalma əvvəl dövlət ali və orta ixtisas məktəblərindən başlandı; kənddə-kəsəkdə onların filialları açıldı və sonra da daha fərasətli filial müdirləri müstəqillik bayrağını qaldırıb tam azadlıq qazandılar. Sonra da “estafeti” özəl təhsil müəssisələri qəbul etdi. İndi heç kəs, hətta bu işə birbaşa cavabdeh olan Təhsil Nazirliyi də respublikada neçə belə müəssisənin olmasını dəqiq bilmir.

İnsafən, qeyd etmək lazımdır ki, özəl məktəblərin çoxu olmasaydı, professor və müəllimlərin əksəriyyəti Famil Mehdinin “Dilən, professor, utanma, dilən!” çağırışına qoşulmağa məcbur olardı. Ancaq altı-yeddi özəl müəssisədə saathesabı dərs deyib birtəhər qəpik-quruş qazanan alimlərin ora-bura qaçmaqdan nə dünyanın işləkləri barədə fikirləşməyə, nə elmi-tədqiqat haqqında düşünməyə, nə dilənməyə və əlbəttə nə də dillənməyə vaxtları yoxdur. Kəsəsi, özəl tədris ocaqlarında çalışan professor-müəllim heyətinin doxsan faizi dövlət məktəblərinin ştatlı işçiləridir. Onlar ikinci iş yerlərində daxili işlərlə o qədər də maraqlanmırlar. Narahat olduqları bircə şey varsa, o da müəssisənin bağlanmaq qorxusudur – birdən iş yerlərinin biri əllərindən çıxar. İşçi qrupun qalan hissəsi isə müəssisənin “sahibləri”dir. İnstitut onlara məxsusdur, hər şeyi də onlar həll edir. Qəbul və semestr imtahanları, bütün “görüm-baxımlar” bu qrupun əlində cəmləşib. Kənardan gələnlər onlar üçün, sadəcə olaraq, icraçılarıdır. Prinsip belədir: icra etdir, ancaq çox sərbəstlik və müstəqillik vermə. Lakin bu həqiqət pərdələnərək, müxtəlif illüziyalı reklamvari formada ört-basdır edilir. Əksər institutlarda yuxarı təbəqəni məktəbin qeydə alınıb-alınmaması (sertifikat alması) o qədər də narahat etmir (Çünki bu, bəzi səlahiyyətlərin və b. şeylərin dövlət məmurları ilə bölüşdürülməsinə gətirib çıxarar). Daha çox bir şey barədə fikirləşirlər: fürsət varkən, necə etsinlər ki, daha çox qazanc götürsünlər. Bir də təhsil prosesindən tamam kənarda olub, lakin instituta “kölgəsini” salan “nəhənglər” var. Heç kəsi inandırmaq olmur ki, təhsildən başqa hər şeyin olduğu (əlbəttə, hamısı belə deyil, söhbət əksəriyyətdən gedir) bu müəssisələrin bəzi-bəzi işləkləri yuxarıları narahat etməsin. Ona görə də camaat deyir: “Bu, Prezident Aparatında işləyən filankəsin, bu, Nazirlər Kabinetindəki filan “böyük” adamın, bu da nə bilim, daha

kimin institutudur". Düzdür, düz deyil, bilmirəm.

Bəs təhsil alanlar kimlərdir? Bu suala cavab verməzdən əvvəl sadə bir hesablama aparaq: özəl təhsil institutlarının çoxunda illik təhsil haqqı 1000 ABŞ dollarıdır. Bu, ayda 70.000 manat maaş alan Allah bəndəsinin 65 aylıq və ya 5 il yarımlıq əmək haqqıdır. Yəqin ki, hesablama valideynlərin sosial tərkibi haqqında təsəvvür yaratdı. Bu məbləğin üstünə "şapkaları" da gəlsək və nəzərə alsaq ki, bu qədər məbləğ sabahkı taleyi o qədər də bəlli olmayan bir işə xərclənir, onda məsələnin başqa bir tərəfi – həmin vəsaitin necə qazanıldığı da aydın olar. Bəs tələbələr? Kəsə demək olar: əksəriyyət bilik səviyyəsi son dərəcə aşağı olanlardır. Düzdür, içərilərində dövlət institutlarına qəbulda bəxti gətirməyən və ya başqa münasibətlə bura gəlib çıxan səviyyəli tələbələr də var. Amma çox az. Əksəriyyəti bura bilik və bacarıq almaq, sənətə yiyələnmək üçün yox, sadəcə diplom üçün gəlir. Belələrini elm, təhsil qətiyyən maraqlandırmır.

Təhsilin keyfiyyəti barədə. Əslində bu gün nə dövlət nə də özəl müəssisələrdə təhsilin səviyyəsi normal vəziyyətdə deyil. Ancaq özəl məktəblərdə vəziyyət bir balaca babatdır. Niyə? Dövlət bütün başqa sahələrə olduğu kimi, öz məktəblərinə də nəzarət edə və qayğı göstərə bilmir. Müəllimlər də ona çörək pulu belə verə bilməyən iş yerlərinə laqeyd münasibət bəsləyir, fikirlərini tələbənin hansı biliyə yiyələnməsinə yox, hansı məbləğdə qiymət yazdırmasına yönəldirlər. Özəl məktəblərdə isə daha çox tələbə cəlb etmək istəyi, rəqabətdə məğlub olmaq təhlükəsi, institutu qeydə alacaq ekspert komissiyasının gözünə xoş görünmək arzusu və s. bu kimi amillər işi zahirən də olsa, qaydasında aparmağa sövq edir. Ancaq burada da tədris-təcrübə bazasının kasadlığı qeyri-normal vəziyyət yaradır. Deyək ki, təcrübəyə getməyən gələcək həkimlər və ya müəllimlər hazırlanır. İdarə edənlərin bir çoxunun təhsil sahəsindən xəbərsiz olması da gülməli və ya qeyri-adi hallar doğurur.

Bütün bu saydığımız və saya bilmədiğimiz "cərrahiyyə əməliyyatları" Azərbaycan deyilən başıbəlalı bir məmləkətin beynində, düşüncə tərzində, mənəviyyatında aparılır. Dövlətin gözünün qabağında ətək-ətək pul yığıb, sonra da camaata "dirsək" göstərən və sudan quru çıxan xeyriyyə cəmiyyətlərini, bankları görəndə fikirləşirsən: sabah da bu həngaməni özəl təhsil müəssisələrində oxuyanların başına gətirməyəcəklər ki? Onda da dövlət nümayəndələri yaxalarını qırağa çəkib deyəcəklər: "Bizim xəbərimiz yoxdur, oraya oxumağa gedəndə heç kəs bizimlə məsləhətləşməmişdi və s."

Bəs nə etməli? Özfəaliyyət dərnəklərini xatırladan bu tədris müəssisələrini dövlət

qeydiyyata almalı, onların fəaliyyətini özünün vahid təhsil siyasətinə uyğunlaşdırmalı, baş alıb gedən özbaşınalıqları dayandırmalıdır. Yoxsa təhsili beləcə bərbad vəziyyətdə olan dövlətin nə müstəqilliyindən, nə iqtisadi qüdrətindən, nə də hər hansı bir nailiyyətindən danışmaq olmaz.

Və nəhayət, bu işi yerinə yetirməli təşkilatlardan biri – Nazirlər Kabineti yanında Dövlət Ali Ekspert Komissiyası barədə. Vaxtilə Təhsil Nazirliyində bu qurumun funksiyasını icra edən bir komissiya var idi. Nazirlər Kabinetində güclü bəndələr oturanda o ləğv edildi və nəzərdə tutuldu ki, ona oxşar bir şey Nazirlər Kabinetinin yanında yaradılsın. Bu yaradılma düz bir il çəkdi. Axır ki, 1994-cü ilin iyulunda başa çatdı. Onun işə başlaması isə nə az, nə çox düz yarım il çəkdi. Guya bu yarım ildə komissiya ancaq fikirləşməklə məşğul oldu. Fikirləşirdi ki, hansı standarta uyğun gələn tədris müəssisələri qeydə alsın, hansını almasın. Belə bir standart, meyar, kriteriya tapdılar-tapmadılar bilmirəm. Ancaq bu yaxınlarda televiziyadakı canlı yayımda Təhsil Nazirliyi işçisinin həmin mövzuda verilən sual qarşısında aciz qalması göstərir ki, hələ, tapılmayıb. Və komissiya bir neçə vaxtdır ki, əsl müsəlman "işgüzarlığı" ilə işə başlayıb. Dörd müəssisə "ildırım sürəti" ilə qeydə alınmadan sonra beş aydan çoxdur ki, Faziləsiz Təhsil Kompleksi – "Futuroloq"da ilişib qalıblar. Nəzərə alsaq ki, 60-dan çox özəl tədris müəssisəsi var, onda bu komissiyanın yaxın 10 ildə qeydəalma işini bir yerə çıxaracağına ümid bəsləmək olmaz.

***"Azadlıq" qəzeti, 27 aprel, 1995***